# Ümummilli lider Heydər Əliyev hüquqi-demokratik Azərbaycan Respublikasının yaradıcısıdır

(Əvvəli 6-cı səhifədə).

Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən biri də məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsidir. Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin 1 dekabr 1998-ci ildə imzaladığı «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsi barədə fərmanı respublikada yeni məhkəmə sisteminin formalaşmasına mühüm töhfə olmuşdur. Dövrün tələbindən irəli gələn bu dəyişikliklər məhkəmələrin işinin təkmilləşdirilməsinə, onların fəaliyyətində şəffaflığın geniş təminatına, hakimlərin seçilməsi qaydalarının mütərəqqi dəyərlərə uyğunlaşdırılmasına, işində səhlənkarlığa, sui-istifadə hallarına yol verən və qanunçuluğu düzgün tətbiq etməyən hakimlər barədə intizam məsuliyyətinin gücləndirilməsi məqsədinə xidmət etmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi islahatları uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ölkənin demokratik inkişafının yeni keyfiyyət mərhələsində vətəndaş cəmiyyəti, dünyəvi, hüquqi dövlət quruculuğu və insan hüquqları sistemində liberal islahatların dərinləşdirilməsini son dərəcə vacib saymışdır. Cənab Prezident qeyd etmişdir ki, **«Demokratik proseslərin davamlı şəkildə aparılmadığı hansısa dövlətin hüquqi sahədə yüksək nəticələr əldə etməsi, beynəlxalq arenada layiqli yerini tutması, dünya hüquq sisteminə inteqrasiyası mümkün deyildir. Eyni zamanda hüquqi cəhətdən inkişaf etməmiş hansısa ölkədə demokratikləşməyə və vətəndaş cəmiyyəti quruculuğuna yönələn cəhdlər uğursuzluqla nəticələnəcəkdir».**

Hazırkı mərhələdə dinamik inkişaf edən ölkə iqtisadiyyatının gəlirlərindən əldə olunan vəsaitin vətəndaş cəmiyyətinin və hüquqi dövlət quruculuğu prosesinin daha da sürətləndirilməsinə, ümumilikdə, insan amilinin yüksəlişinə yönəldilməsi demokratiya sahəsində böyük təcrübəsi olan dövlətlər və ayrı-ayrı beynəlxalq təşkilatlar tərəfindən də müsbət qarşılanır. Azərbaycanın bugünkü inkişaf tempi demokratik proseslərin dərinləşdirilməsini, qanunçuluğun gücləndirilməsini və liberallaşmaya xidmət edən siyasi-hüquqi və demokratik islahatlar kursunun genişləndirilməsini ciddi tələb kimi önə çıxarır.

Bu gün ölkəmiz Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi yolla irəliləməklə, insan hüquq və azadlıqlarının təminatı, demokratikləşmə sahəsində və hüquqi dövlət quruculuğu istiqamətində yeni-yeni uğurlara imza atır.

**Cənab Prezident haqlı olaraq bəyan edir ki, hər hansı ölkənin sabit və davamlı inkişafı heç də təbii sərvətlərin zənginliyi ilə deyil, demokratikləşmə proseslərindən, qanunun aliliyinin qorunmasından, vətəndaş cəmiyyəti təsisatlarının inkişafından asılıdır.**

**Neft kapitalının «insan kapitalına» çevrilməsi** deməyə əsas verir ki, respublikamız hüquqi islahatların aparıldığı, demokratik dövlət quruculuğu, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı sahəsində ən qabaqcıl dövlətlərdən birinə çevrilmişdir. Artıq ölkəmiz qeyd olunan sahələrdə postsovet məkanında mövcud olan respublikalar üçün nümunədir.

Dahi öndər Heydər Əliyevin ümummilli siyasi-hüquqi strategiyası Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən dönmədən, ardıcıllıqla, yeni dünya nizamına uyğun olaraq uğurla həyata keçirilir.

**Cənab İlham Əliyevin Azərbaycanın ən böyük milli nemәti olan Heydər Əliyev dühasından, onun müqayisəedilməz siyasi və dövlətçilik təcrübəsindən qədərincə bəhrələnərək, Azərbaycanı dünya dövlətləri arasında demokratik, hüquqi, qüdrətli və lider dövlətə çevirmişdir.**

***Məqsəd ORUCOV,***
***Qəbələ rayon prokuroru,***
***baş ədliyyə müşaviri.***

*9 May—faşizm üzərində Qələbə Günüdür*

# Heç kim unudulmayıb, heç nə yaddan çıxmayıb

1941-ci ilin iyun ayının 22-də faşist Almaniyası beynəlxalq sülh müqaviləsini pozaraq sovetlər ölkəsinin üzərinə qəflətən hücum etdi. Bu müharibə Sovet İttifaqı adlı böyük bir ölkənin iqtisadiyyatını iflic etdi, yüz minlərlə şəhər və kəndi viran qoydu. Dünyaya ağalıq etmək iddiasında olan Hitler Almaniyası eyni zamanda az bir müddətdə əksər Avropa ölkələrini işğal etmişdi. Bu müharibə 1939-cu il sentyabrın 1-də nasist Almaniyasının Polşa üzərinə hücumu ilə başlanmış, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatmışdır. İkinci dünya müharibəsində dünyanın 61 dövlətindən 120 milyon adam iştirak etmişdir. Faşist bloku (Almaniya, İtaliya, Yaponiya, Macarıstan, Bolqarıstan, Ruminiya, Finlandiya) məğlub edilmiş, bu bloka daxil olan ölkələrin əksəriyyəti müharibənin gedişində onun tərkibindən çıxaraq, Almaniya və Yaponiyaya müharibə elan etmişlər.

Müharibə bəşəriyyətə çox böyük itkilər bahasına başa gəldi. Təqribən 50 milyon adam həlak olmuş, milyonlarla insan yaralanmış, şikəst olmuş, itkin düşmüş, əsir düşərgələrində işgəncə və zülmlərə məruz qalmışdır.

1418 gün davam edən İkinci dünya müharibəsi başlanan gündən qələbə müjdəsi tək sovet silahının deyil, həm də ədalət və inamın birgə qələbəsinə, çoxmillətli sovet ailəsinin qələbə uğrunda ölüm-dirim müharibəsinin təntənəsinə çevrildi.

İkinci dünya müharibəsinin başlanması Azərbaycan xalqı da ümumi vətənin müdafiəsinə qalxdı. Soydaşlarımız bütün tərəqqipərvər bəşəriyyət üçün qorxulu təhlükəyə çevrilmiş faşizmin taununa qarşı hədsiz nifrət qəzəblərini ön cəbhədə əsgəri rəşadəti və qəhrəmanlıqları, arxada isə fədakar əməkləri ilə nümayiş etdirdilər. Qələbənin əldə olunmasında Azərbaycan həm canlı qüvvəsi, həm də maddi resursları ilə müstəsna rol oynadı. Müharibənin ilk günlərində ölkəmiz ordu sıralarına 40 mindən çox oğlan və qız yola saldı. Elə bir kənd, elə bir ailə olmadı ki, məşum müharibə xəbəri onun qapısını döyməsin. Az bir müddət ərzində 186 min nəfərdən çox könüllü xalq qoşun dəstələrinə yazıldı. Respublika ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi. 15 min nəfərlik hava hücumundan müdafiə dəstələri yaradıldı.

Müharibə illərində müttəfiq respublikalardan səfərbər olanlar hesabına 80 milli diviziya və briqada yaradılmışdı. Azərbaycanda təşkil olunmuş 416-cı diviziya Taqanroq uğrunda döyüşlərdə, Ukraynanın və Varşavanın azad olunmasında fəal iştirak etdi. Qafqaz dağlarının ətəklərindən Berlinin Brandenburq qapılarınadək misilsiz şücaətlərlə dolu şərəfli döyüş yolu keçmiş 416-cı diviziya düşmənin 23 minə yaxın əsgər və zabitini məhv etmiş beş mindər artıq faşist əsir almışdı.

Azərbaycanın qəhrəman oğullarının müharibədəki rəşadəti dövlət tərəfindən layiqincə qiymətləndirildi. 125 nəfərə Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi, 30 nəfər «Şöhrət» ordeninin üç dərəcəsinə layiq görüldü, 170 mindən çox əsgər və zabitimiz SSRİ orden və medalları ilə təltif edildi. Böyük Vətən müharibəsi illərində istedadlı sərkərdə və komandirlərdən H. Aslanov, M. Əbilov, H. Hüseynov, A. Vəzirov, G. Əsədov, Z. Bünyadov, H. Zeynalov, A. Quliyev, P. Əliyarbəyov, M. Mahmudov, A. Abbasov, C. Abdullayev və başqalarının adları xidmət etdikləri ordu və cəbhələrdə şöhrət tapmışlar.

Müharibə illərində respublikamız ölkənin başlıca yanacaq bazasına çevrilərək 75 milyon ton neft verdi. Düşmənə sarsıdıcı zərbələr vuran təyyarələrin 90 faizi Bakı nefti ilə havaya qalxırdı. Qəhrəman təyyarəçi general-polkovnik Nikolay Antolşkin Azərbaycan Prezidenti ilə görüşündə Bakı neftçilərinin qəhrəman əməyindən söz açaraq minnətdarlıq hissi ilə deyirdi: «Bakı nefti olmasaydı, qələbə də olmazdı».

Doğma Qəbələmizdən cəbhəyə 6 min nəfərə yaxın həmyerlimiz göndərilmiş, onlardan 1169 nəfəri qələbədən sonra geri qayıtmış, digərləri isə qanlı döyüşlərdə həlak olmuşdu. Bu gün cəbhədən sağ qayıdanlardan Qurban Ziyadov, Nurəddin Tağızadə, Çinar Eyyubov Məmmədəli Xəlilov, Məhiyyədin Allahverdiyev, Ziyəddin Yusifov, Bahəddin Kərimov, Xasəmməd Xasəmmədov həyatlarını davam etdirirlər. Bu gün ümumiyyətlə sağ qalan Böyük Vətən müharibəsinin iştirakçısı 25 nəfərdir. Onlar ölkə Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısından razıdırlar, yenə rayonun ictimai həyatında, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində fəal iştirak edirlər.

İndi dünyanın əksər ölkələrində faşizm üzərində qələbənin 68 illik yubileyi təntənə ilə qeyd edilir. Bizim veteranlarımızın arzusu odur ki, elə bu ildə qələbəmizi Azərbaycanın bütövlüyünün bərpa olunması üzərində qeyd etsinlər.

**Aslan CƏLİLOV.**